BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2010

# SAİB TƏBRİZİ YARADICILIĞINDA TƏSƏVVÜF BƏDİİ ÖZÜNÜİFADƏ VASİTƏSİ KİMİ

**S.M.QOCAYEVA**
***Bakı Dövlət Universiteti***
***sevinc.g.m.@ramler.ru***

*XVII əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Saib Təbrizi "hind üslub"unda yazıb yaratmışdır. O, dövrünün fikri axınlarına yaxından bələd olmuş, sufiliyin mənəvi kamilliklə bağlı müddəalarından bədii özünüifadə vasitəsi kimi bəhrələnərək yaradıcılığında bəşəri ideyaları əks etdirmişdir.*

XVII əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli şairi sayılan Saib Təbrizi "hind üslubu"nda yazıb-yaratmışdır. Dünyanın faniliyi, insanın daim olub-keçənlərdən, təbiətdə baş verənlərdən ibrət almasının vacibliyi Saib yaradıcılığında xüsusi vurğulanmış, şair şeirdə mənaya dəyər vermişdir. "Qəribə gözəllik, yeni məna axtar" deyə müasirlərinə müraciət edən şairin lirikasında düşüncə aparıcı olmuş, elə bununla da bağlı olaraq Saib təsəvvüfü həqiqətləri, ifadə edilməsi mürəkkəb olan bilgi və duyğularını öz təfəkkür süzgəcindən keçirərək yaradıcılığında əks etdirmişdir. Dr. Əli Fuad Bilkan haqlı olaraq yazır ki, "mütəsəffif şairlərdə vəcd hissi ilə dilə gətirilən həqiqətlər Saibdə ağıl və hikmət nəzəri ilə dəyərləndirilmişdir (5, 7).

Güclü müşahidə qabiliyyətinə sahib olan ustad təbiəti sevməklə yanaşı, təbiətdə baş verən hadisələri diqqətdən qaçırmamış, düşüncələrini oxucusuna daha aydın çatdırmaq üçün təbiət hadisələrinə müraciət etmişdir. Lirik parçalarından birində baharın gözəlliklərindən vəcdə gələrək düşüncələrə dalan şair təbiətdə baş verənlər fonunda həyat həqiqətlərini görməyə səsləyir: "Gül tufanına, baharın coşğunluğuna baxın. Baxın ki, günəş nə qədər fəaliyyətlə doludur. Gözləri qamaşdıran bu aynalar hansı ayinədarın əlindədir. Görün, gül, yaşıllıq axar su pərdəsi ardında oturmuşdur. Bu yaşıl qumaşda Ayı görün. Baxın, o düzgün boylu ilə qucaq-qucağa olmaq şövqündən güllər ətrafa qucaq açmışdır. Xəttatın xəttini oxumaqla kifayətlənməyin, yarın xəttinin arxasında gizlənən gözəlliyi də görün. Cahanın mahiyyətində bu bir rayihədir, qoxlayın. Cahandakı bu gözəlliyi görün. Kirpiklərinizi açıb, dilinizi bağlayın. Üfüqlərin yarın cilvəsilə dolu olduğunu görün. Atəşi görəcək gözünüz yoxsa, barı baharın mahiyyətindəki qaynaşmanı görün".

Saib "hind üslubu"nun ən böyük şairi olduğundan onun yaradıcılığına təsəvvüfün təsiri göstərir ki, N.İ.Priqarinanın "hind üslubu"nun varlığın vəhdəti haqqında sufi konsepsiyasını aradan çıxarması fikri məntiqə uyğun deyil. Şairin yaradıcılığına müraciət edək:

Zərrədən günəşədək (bütün şeylər) "ənəlhəqq"
-deyə fəryad edir.

Eşq ahəngində sazın xaric nəğməsi yoxdur.

Priqarina ilə razılaşmayan M.Məhəmmədi şairin lirikasından bu beyti örnək gətirərək, "hind üslubu"nun vəhdəti-vücud təlimini aradan çıxarması fikrinin düzgün olmadığını qeyd edir (11, 135).

Saib təsəvvüfə meyl edən bütün şairlər kimi eşqi mütləq həqiqətə çatmağın əsas vasitəsi hesab edərək, eşq təriqətinə mənsub olduğunu bildirir. Məhz bu eşq – ilahiyə olan ülvi məhəbbət onu məzhəblərin qeybindən azad etmişdir. Sufiliyin belə dəyər verdiyi eşq nədir? Nəsib Göyüşovun "Təsəvvüf anlamları və dərvişlik rəmzləri" kitabına nəzər salaq: "eşq məhəbbətin yüksəliş və ifrat dərəcəsinə deyilir. Eşq ilahi nurdur, təlimlə deyil, Haqq tərəfindən verilir. Eşq ruhun batini aləmdə qopardığı mənəvi tufandır" (7, 72). S.Şıxıyeva isə "eşq" sözünün mənşəyinə diqqət yetirərək yazır ki, "Eşq" üzüm tənəyinin xüsusi bir növüdür ki, ağaca sarılaraq onun şirəsini sorur və nəticədə ağac quruyaraq məhv olur. İlahi eşq də maddi olan hər şeyi məhv edir və yalnız o ilahi Varlıq qalır. Təsəvvüf nümayəndələri bu mülahizələrində "hər şey məhv olacaq, onun simasından başqa" (Küllü şeyin həlakə illa vəchəhi) ayəsinə əsaslanmışlar" (16, 37).

Sufilərə görə, əslində köhnə bir xarabalıqdan ibarət olan maddi dünyanın özünü də canlandıran məhz eşqdir. Eşqin yüksəlişi qəlbi mərifətlə doyurur və nəticədə salik Yaradanla bir anlıq vüsal naminə maddi varlığından keçməyə can atır. Saib yazırdı:

Hüsni-cövlanından əl kəsməkdir arvadlar işi,
Keç özündən mərdlər təki Yusifi-Kənan üçün.

Allah gözəldir. Ona aid olanlar, Onun yaratdıqları da gözəldir. Mərifət şərabını dadan hər bir qəlb təmasda olduğu hər şeydə Allahdan bir işarə gördükdə arifanə məstlik halına gələrək, Haqla birbaşa ünsiyyətə can atır. İlahi varlığa qovuşmaq üçünsə, ""öz" "mən"ini dəf etməli, qəlbindəki təkəbbürü, qüruru öldürməli, iradəsindən keçib Allaha tabe etməli, onu dünyaya bağlayan əlaqələri kəsməli, daxilini güzgü tək saflaşdırmalı, bir sözlə, özünü unudub fərdi şüurdan universal şüura keçməlidir" (11, 124). Saibə görə, elə bu "özü"ndən çıxış da eşq yolçusu qarşısında duran əsas şərtdir. Yuxarıda örnək gətirdiyimiz beytdə şair gözəllik timsalı olan Yusiflə bağlı rəvayətə eyham edərək öz təsəvvüfü dünyagörüşünü açıqlamışdır.

Beləliklə, "eşq" təsəvvüf yolçusunu mütləq həqiqətə aparan əsas vasitədir. Eşq sayəsində insan qəlbi paklaşır, bəşərə məxsus "mən" məhv olur, yalnız Allaha məxsus olan "Mən" qalır. Bu "Mən" isə "insanda Allahdan olan ilahi zərrədir və ya insanı Allahla vasitəsiz olaraq bağlayan ilahi bağdır" (3, 94). Buna əsaslanaraq Əbuhəfs Ömər Sührəvərdi Həllacın məşhur "Mən haqqam" kəlamını misal gətirib bildirir ki, burada "Mən" anlayışı Allahı ifadə edir.

Şair yuxarıda nümunə gətirdiyimiz beytlə yanaşı başqa şeirlərində də Quran qissələrinə və dini rəvayəvlərə, o cümlədən hədislərə eyham edərək təsəvvüfü görüşlərini açıqlamağa müvəffəq olmuşdur:

Elə yüngüldü yüküm, Nuh məni almış gəmiyə,
Çör-çöpəm sanki, tufandan xəbərim yoxdu mənim.

Bu beytdə Saib Nuh peyğəmbərin qissəsindən təsirlənmişdir. Həmin hekayətdə Nuhun qövmündəki imansızların cəzalandırılması məqsədilə Allahın əmri ilə baş verən dəhşətli tufandan və iman gətirən əməlisaleh insanların Nuhun düzəltdiyi gəmidə nicat tapmasından bəhs olunur. Həmin hadisəyə eyham edən şair qəlbinin maddiliklə bağlı olan nəfsani ehtiraslara tabe olmadığını, mənəviyyatca saf olduğunu

bəyan edərək tufandan qorxmadığını bildirir. İslami inanca görə də, gəmidə imanı təmiz olan insanlar toplaşarsa, həmin gəminin dəniz fəlakətlərindən heç bir qorxusu olmaz (4, 60).

İsanın iynəsini sən yaxana taxma nahaq,
Bir tükün siqlətinə tab eləməz, bil, o bədən.

Bu beytin birinci misrasında İsa peyğəmbərin Allahın dərgahına gedərkən əynindəki köynəyin üzərində dünya malından yalnız bir iynənin olduğuna işarə edilir. Beytin ikinci misrasında isə təsəvvüfdən təsirlənən şair, "fənafillah"a çataraq dünyəvi zövqlərdən azad olan aşiqin maddi aləmin bir iynəsinə də ehtiyacı olmadığını, maddi vücudu ilə bağlı olan tükün belə onun zərif bədəninə ağırliq gətirəcəyini bildirir. Beytin birinci misrası ikinci misra üçün giriş təsiri bağışlayır. Qeyd etməliyik ki, sufi təliminə görə, saç, o cümlədən tük, rəmzi mənada dünyəvi həvəslərin təzahürü olaraq insanı Haqdan uzaqlaşdırır. Maddi aləmə bağlılığı təmsil etdiyi üçün həqiqətə doğru yürüyən aşiqə ağırlıq edir.

Dünyaya od yayan o eşq də bir gün soyuyar,
Onda İbrahim üçün od da dönüb reyhan olar.

Bu beytin birinci misrasında Saib bu dünya ilə bağlı olan bütün məhəbbətlərin məcazi olduğuna işarə edərək onların əbədi olmadığını vurğulayır. Sufi təliminə görə, gerçək və həqiqi məhəbbət Allaha olan məhəbbətdir.

Saib Allaha müraciətlə yazır ki, "Baxmayaraq ki, yaradılmışlar sənin qapının dilənçisidir, heç bir məxluq bilmir ki, sənin sarayın haradadır!" (11, 118). Hədislərdən birində deyilir: "Allahın mənzili sevimli bəndəsinin qəlbindədir". Sufi təsəvvürünə görə, "Lahut ilahi məqam olmaqla bütün aləmlərdən yüksəkdir" (6, 30).

Süfilər nəfsin cisimlə ruh arasında vasitə olduğunu yaxşı bilir və onun tamamilə məhvinin qeyri-mümkün olduğunu anlayırdılar. Saib Təbrizi elə buna görə də nəfsi saflaşdırmaqla (tərbiyə etməklə) maddiliklə bağlı nəfsani arzulardan xilas olmağı təqdir edir. Çünki insanı haqq yoldan sapdıran nəfsin maddiliklə bağlı arzularıdır.

"Nəfsin sənin əlində əsir və aciz ikən ona mərhəmət edib də arzularını gerçəkləşdirməyə çalışma! Zira sən ona nə qədər yaxşılıq etsən də o, daima səni təhlükəli yollara sövq edər. Sən onu tərbiyə edərək öldürməyə çalış!" - deyə bəşərə müraciət edən Saib Təbrizi öz fikrini məntiqi baxımdan da isbatlamaq məqsədilə məşhur atalar sözünü xatırladır: "Sahibinin və tanıdıqlarının ayağını dişləyən köpək öldürülməyə layiqdir".

Əzəli və əbədi olan ruh pak olsa da, bədənin maddi və fiziki tələbatları onu korlayır, "çirkli dünya işlərinə bulaşdırır". Ruh ilk yaradılış bağçasındakı günlərini yada salaraq öz əslinə qayıtmağı arzulayır: "Ah o günlər ki, təcrid iqlimində və ələst bağçasında öz başımın sultanı idim. Bilmirəm nə etdim, nə günahım vardı ki, bu bədən zindanına düşüb də çirkli dünya işlərinə bulaşdım".

Saibə görə, kamil insan o şəxsdir ki, qarışıq torpaqda da həqiqət cövhərini və mərifətini görə bilsin. Şair yenə də təbiətə müraciət edərək bildirir ki, Ayın suyun üzərindəki əksini uşaqlar belə çətinlik çəkmədən görə bilirlər.

Məhəmməd peyğəmbərin kəlamlarından birində deyilir: "Şöhrət bəladır, lakin hər kəs onu istəyir. Təvazö rahatlıqdır, lakin insanlar ondan qaçır". Saib Təbrizi öz yaradıcılığında insanları bu dünyanın şan-şöhrətinə və rahatlığına uymamağa çağırır, bunun insanın xoşbəxtliyi yolunda bir maneə olduğunu bildirir. Saibə görə, barmaqla göstərilmək və məşhur olmaq üçün nəfsi qıraraq "qənaətlə yaşamaq və çətinliklərdən keçərək hilal kimi nazilmək lazımdır. Ayın ən çox diqqət çəkdiyi

zaman onun sap kimi ən nazik olduğu zamandır".

Saib ölümdən qorxmurdu, çünki bütün ömrünü insanlığa xidmətə sərf etmiş, öz ideyalar silsiləsilə bədii təfəkkürü zənginləşdirmişdi. İnsanlarla xoş davranmış, ürək sındırmamışdı. Saibə görə, "Həşr sabahından ən çox qorxanlar xarakter və vicdanlarından, əməllərindən şübhəsi olanlardır. Çünki hesabı təmiz olanlar hesab günündən qorxmaz. Necə ki, çirkin olanlar aynaya baxdıqları zaman üzülər və utanar, Yusif peyğəmbərsə heç zaman belə duyğulara qapılmaz". Elə buna görə də, "cəhənnəmə getməsi lazım gələn kimsədə cənnət açarını axtarma" deyən şair məşhər günü sorğusuz-sualsız cənnətə daxil olacağına inanırdı:

Sanmasın heç kim fəna dünyada mövcud özünü,
Daxili-cənnət olur məhşərdə Saib, bihesab.

O, əcələ insanı Allaha qovuşduran bir vasitə kimi baxırdı:

Ömür keçdi, səfər əsbabını amadə qılın,
Hər nə sizdən kəsə tiği-əcəl andan kəsilin.
Gülzümi eşqdən ey ayrı düşən həmdəmlər,
Düşmüşkən yola seylabi bahari yığılın.

Saib Təbrizi əslindən ayrı düşən ruhların hicran əzabını anlayır, "qəfəsdə quş kimi çırpınan" ruhun cism zindanından qurtulduqdan sonra təskinlik tapacağını bəyan edirdi.

XII əsrdə yaşamış Azərbaycan mütəfəkkiri Ş.Sührəvərdi öz varlığının bir ruhdan ibarət olduğunu bildirir, dünyanı bu ruh quşu üçün bir qəfəs sayırdı. Bildirirdi ki, həqiqətə çatmaq üçün insan varlığındakı ilahi başlanğıca dəlalət edən ruh maddi olan cismi tərk etməlidir:

Mən bir quş bu (bu dunya) isə qəfəsim idi,
Oradan uçaraq (qəfəsimi başqaları üçün boş qoydum)
Ruhları öz bədənlərindən çıxarın ki,
Haqqı olduğu kimi açıq-aydın görəsiniz (10 , 129).

Bu fikir İ.Nəsimi beytlərində eyni ilə Ş.Sührəvərdi yaradığılığında olduğu kimi ifadə olunmuşdur:

Gəl, ey Nəsimi – sərgəştə, canı tərk eylə
Ki, can qəfəsdən uçar, əzmi-cavidan eylər.

İ.Nəsimiyə görə də, Tanrıya qovuşaraq həqiqətə çatmaq üçün ruh cismi tərk etməlidir:

Ruhi-qüts oldu Nəsimi, cismini tərk eylədi,
Gövhəri fərd oldu düşdü vəhdətin dəryasinə.

Göründüyü kimi, S.Təbrizi sələflərindən təsirlənsə də, onları təkrarlamamış, eyni fikri yeni çalarda təqdim etməyə müvəffəq olmuşdur.

İnsan nə qədər yaşayırsa-yaşasın ölümə məhkumdur. "Kitabi-Dədə Qorqud" dastanında deyildiyi kimi "Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya". Dünya dolur-boşalır, nəsillər bir-birini əvəz edir. Qəribədir ki, bu dünyanın övladı olan insan doğulur, boya-başa çatır, ömrünü-gününü sürdükdən sonra, bəzən də çox erkən kainatı tərk edir. Dünya isə əsrlər keçsə də elə bir ciddi dəyişikliyə uğramır, qocalmır, öz uzun ömrünü yaşayır. Professor Malik Mahmudovun "Klassik ərəb ədəbiyyatı" kitabında maraqlı bir əhvalatdan bəhs olunur. Belə ki, Əməvilər dövründə yaşamış ərəb şairi Fərəzdək nəqaid şeirinin ən böyük ustadı kimi tanınan müasiri Cərirə qasid vasitəsilə bir şeir göndərir:

Mən sənin üstünə gələn bir ölüməm.
İndi bax gör özünü ondan necə xilas edəcəksən?

Fərəzdək ölümün qarşısına çıxa biləcək bir qüvvə olmadığından Cəririn bu şeirə cavab yaza biləcəyini ehtimal etmirdi. Cərirsə şeiri oxuyaraq bədahətən deyir:

Mən ölümə üstün gələn kainatam.
Sən mənə elə bir şey göstərə bilərsənmi ki, onun ömrü kainatdan uzun olsun (9, 60).

Təsadüfi deyildir ki, "Sirlər xəzinəsi"ndə Şamla Zalın rəvayətinə eyham edən Nizami Gəncəvi dünyanı – kainatı qarasaçlı Zala – ataya, bəşəri isə anadan ağsaçlı doğulan körpə Zala bənzətmişdi.

Təsəvvüfdə mürşid-piri muğan salikə mənəvi yol göstərəndir ki, onun köməyilə insan qəlbinə ilahi feyz və nur nazil olur. Əgər Şah İsmayıl Xətai "Mürşidsiz, rəhbərsiz yollar açılmaz" deyirsə, Saib dirilik suyu ilə bağlı rəvayətə eyham edərək, həqiqətə yetmək istəyən insanın son məqsədə çatmasını qismətə və həmin şəxsin mətinliyinə, iradəsinə, mənəvi saflığına, bir sözlə, öz cəhdinə və səyinə bağlayır: "Qisməti olmayanlara mürşid-i kamil nə edə bilər ki! Xızır əleyhissəlam İskəndəri "abi-həyat" çeşməsindən susuz gətirmədimi?

Saib Təbrizinin böyük sələfi Ş.Sührəvərdi tərki-dünyalığa meyl etməmiş, bu fikirdə olmuşdur ki, "Allaha qovuşmaq, əbədiyyətə çatmaq yalnız öldükdən sonra mümkündür. Bunun üçün isə heç də həyatın nemətlərindən əl çəkib tərki-dünyalığa qapılmaq lazım deyildir" (10, 130).

Saib də bu dünyanın şan-şöhrətinə, sərvətə aludə olmamağa çağırmaqla yanaşı tərki-dünyalığı təqdir etməmişdir. Həqiqi dostlarla ünsiyyətdə olmağı daim tənha bir küncə çəkilərək dua və ibadətlə məşğul olmaqdan üstün tutmuşdur. Saibə görə, insan fəal olmalı, durmadan bəşərə xidmət göstərməlidir. Həmcinslərin mənəviyyatına təsir göstərərək onları haqq yola dəvət etmək, cəmiyyət üçün faydalı bir işlə məşğul olmaq, bilik və bacarığı xeyirxah əməllərə yönəltmək tərki-dünyalıqdan dəyərlidir. Kamilliyə çatmaq üçün heç də tərki-dünyalıq əsas deyil. Bu da M.Məhəmmədinin belə bir fikrinə haqq qazandırmağa əsas verir ki, "sufizm bir çox başqa sənətkarlardan fərqli olaraq, Saibi həyatdan uzaqlaşdırmır, əksinə gerçəkliyə aydın və kəskin münasibətin formalaşmasına kömək edir" (11, 136).

Qeyd etməliyik ki, S.Təbrizi Ş.Sührəvərdidən fərqli olaraq, əbədiyyətin insanın bu dünyadakı yaşamı boyu qazanılacağına inanır və əqidəcə "əbədiyyət və puça çıxmaq insanın öz əlindədir. Ey insanlar, gəlin yaxşılıq edib ölməməzlik suyu içək!..." (8, 503) deyərək bəşərə səslənən ustad Xaqaniyə yaxınlaşır.

Öz zəmanəsində ağıl və dərrakəyə dəyər verilməməsindən şikayətlənən şair, eyni zamanda Heraklit (e.ə.544-480) və Demokritdən (e.ə.460-IV əsrin əvvəli) fərqli olaraq, ağlı dünyanın və həqiqətin dərkində mühüm amil kimi qəbul etmirdi. Məlumdur ki, yunan mütəfəkkirləri və orta əsr Şərq filosofları ağlı bir növ fəlsəfə ilə eyniləşdirir, Aristotel ağılı elmin başlanğıcı hesab edir, əslən türk olan Əbu Nəsr əl-Fərabi (840-950) zəkanı kainatın nizamlayıcısı səviyyəsinə qaldırırdı. İdrak ruhun ən yüksək kamilliyi kimi qəbul olunduğundan ağıl insanı xoşbəxtliyə çatdıran əsas vasitə sayılırdı (9, 169).

İslami təsəvvüfə görə, insan hislərlə qavraya bilmədiyi şeyləri ağılın köməyilə anlayır. Səbəblə nəticə arasındakı münasibəti onun sayəsində idrak edir. Ağıl heç bir duyğu orqanının vasitəsinə ehtiyac duymadan öz-özünə müxtəlif fikir və müla-

hizələr yürüdə bilən ruhun əhəmiyyətli bir tamamlayıcısıdır. Ağıl Allahın xitabını anlamağa müsait yaradılmış bir vasitədir. O, varlığa baxarkən onu hər kəsdən fərqli görür və düzgün mühakimə yürüdür. Duyub hiss etdiklərini, görüb öyrəndiklərini mərifətə çevirərək qəlbə əmanət edir.

Sufilərə görə, ağıl salikə həqiqətə gedən yolu tapmaqda yardımçı olur. Salik hallar və məqamlar silsiləsini keçərkən "yalnız kamil insanın (mənəvi mürşid – S.Q.) əqlindən faydalanır" (12, 267).

Lakin Adəm övladının cəmiyyətdəki həyatında, fərdlərlə əlaqəsində mühüm əhəmiyyət kəsb edən ağıl insanı fəlakətə də sürükləyə bilər. Nəfsini saflaşdırmağa can atan insan öz ağlına güvənməməlidir. Belə ki, "bəzi insanlar nəfisləri ilə vuruşarkən nəfsin istəklərinin bir qismini özlərinə ram edincə bunu öz əqllərinin sayəsində əldə edə bildiklərinə inanırlar. Beləcə meydana çıxan əqil mənliyi nəfs mənliyindən daha betər, daha güclü olur" (12, 267) ki, bu da həqiqətə gedən yolda açıq-aşkar bir maneəyə çevrilir. Mövlana "Əgər ağlın haqq yolunda sənin ayağında ip olursa, o ağıl deyil, bir ilan və əqrəbdir" deyərkən, "əqil" sözünün ərəbcə mənasına işarə etmişdir. "Əqil" dedikdə, ərəblər dəvənin ayağına bağladıqları ipi nəzərdə tuturdular. Həmin ip dəvənin hərəkətini məhdudlaşdırırdı. Qəlbi məhdudiyyət və bağlılıq kimi təqdim olunan ağıla qarşı qoyan mötədil sufilər heç də məntiqi və ağılı inkar etmir, qəlb nuru və mənəviyyatla uzlaşmayan ağılı kor kimi tanıyırdılar (6, 39).

Saib bu baxımdan qəlbin həqiqətlərini duymada birinciliyi "eşq"ə verir. Ağıl xilqət və yaradılandır. Saib də sələfi Füzuli kimi, Allahı əqli dərk etməni qəbul etməsə də duyğular vasitəsilə belə bir səviyyəyə yüksəlmənin mümkünlüyünə inanır. Biz dünyanı ağıl vasitəsilə öyrənirik. Təsəvvüfdə birinci mərhələ elmdir ki, ağıl elmin başlanğıcı sayılır. Saib hikmətlərindən birinə nəzər salaq: "Ağıl ilə bir küçə boyu məsafəyə qədər yol yoldaşı oldum. Dəli tikanlarından ətəyim parça-parça oldu".

Təsəvvüfdəki ağıl-qəlb qarşılaşması Saib yaradıcılığında da özünə yer almışdır. Sufilər qəlb dedikdə heç də insan bədəninin ən vacib orqanı sayılan ürəyi nəzərdə tutmurlar. Ürək cismlə, yəni maddiliklə bağlıdırsa, qəlb düşüncə, şüur, idrak və mənəvi aləmimizin mərkəzi sayılır ki, insanın axtardığı həqiqət burada əks olunmuşdur. Türk alimlərinin fikrincə, qəlblə ürək arasında cismlə ruhun bir-birinə münasibətinə bənzər sirli bir münasibət vardır ki, elm bunu açıqlamaqda acizdir.

Sufilərə görə, məhz eşqin yüksəlişi ilə nəfsi paklaşdırmaq, həqiqətə - son məqsədə gedən yolda maneələri yox etmək mümkündür. İnsanın öz "mən"ini dəf etməsində eşq əsas vasitədir.

Ağıl yaradılandır, öz xaliqinə nisbətdə məhduddur, qüdrət və əzəmət sahibi olan Yaradanı dərk etməkdə acizdir. Eşq isə mərifət qaynağıdır. O, ruhlar aləmindəndir, ilahi mənşəlidir. Beləliklə, ağıl maddi aləmə, eşq isə ruhani aləmə mənsubdur. Ağıl qeybə dair bilgilərdən xəbərsizdir, Allahı ağılla dərk etmək qeyri-mümkündür. Eşq nurunun qəlbə axması insanı mənən yüksəldir ki, qəlbin bəslənmə qaynağı da imandır. Qəlb ancaq Allahı anmaq və zikr etməklə rahatlıq tapır, başqa sözlə, "qəlb anlamı mənəvi saflıq və ruhi paklığa əsaslanır" (6, 152).

Saib yaradıcılığında ağıl – eşq qarşılaşması onun sufizmə dərindən bələd olduğundan xəbər verir. Sufilərə görə, qəlb inamına əsaslanmayan ağıl hiylə alətinə çevrilir. Saib yazır: "Hiyləgər ağlın tədbiri eşqin nəyinə gərəkdir? Aslan tülkü quyruğundan yapılmış əsadan istifadə edərmi heç?"

Göründüyü kimi, şair birinci misradakı mülahizəsinə oxucusunu inandırmaq

məqsədilə ikinci misrada maraqlı bənzətmələr təqdim edir. "Eşq" türklərdə müqəddəs sayılan, güc rəmzi olan aslana, hiylə və mərk alətinə çevrilmiş ağılsa, hiyləgərliyi ilə məşhur olan tülkünün quyruğundan hazırlanmış əsaya bənzədilir. M.C.Rumi yaradıcılığına diqqət yetirək. Rumi bu fikirdə idi ki, "Haqqın camal sifətlərini bəsirət gözü ilə görməyən adam kordur, onun üçün əsa çıraqdan üstündür" (12, 153). Saib də ağılı yarasaya, eşqi günəşə bənzədir. O, ağıl əhli ilə eşqdən danışmağı mənasız sayaraq bəyan edir ki, sağlamlıq və gözəllik üçün əhəmiyyətli olan sürməni kor gözə çəkmək olmaz. Saibin bu fikirlərində təsəvvüfün və Mövlananın təsiri aydın duyulur.

Saib yaradıcılığında rast gəldiyimiz bu bənzətmə (eşq-sürmə) onun Nizami yaradıcılığına da dərindən bələd olduğundan xəbər verir. "Leyli və Məcnun" poemasının "Atasının Məcnunu Kəbəyə aparması" bəhsində Məcnun "məni eşqdə ən yüksək dərəcəyə çatdır" deyərək Yaradana yalvararkən, Allahdan "bu sürməni gözümdən əsirgəmə" - deyə rica edir:

O ürəkdə ki, eşq yoxdur,
Onu qəm seli aparsa yaxşıdır.
İlahi, allahlığının böyüklüyü naminə,
Bir də padşahlığının kamalı naminə,
Məni eşqdə elə bir dərəcəyə çatdır ki,
Mən qalmasam da, o qalsın [yaşasın],
Eşq çeşməsindən (günəşindən) mənə nur ver!
Bu sürməni gözümdən əsirgəmə! (13, 81)

Eşqlə sürmə arasındakı bənzəyişə gəlincə, burada eşqin qəlbi saflaşdıraraq nura qərq etməsi, buradakı qaranlıq pərdələri sıradan çıxararaq onu genişləndirməsi və işıqlandırması, sürmənin isə qəlbin zahirə açılan güzgüsü olan gözlərə sağlamlıq-nur, füsünkarlıq verməsi, eləcə də gözlərin həcmini qabarıq əks etdirməsi nəzərdə tutulur. İnsanın daxili aləmində qəlb aparıcıdırsa, zahiri görkəmin cəzbediciliyində əsas rol gözlərə məxsusdur. "Göz ürəyin aynasıdır" məsəli də təsadüfi deyilməmişdir. Eşq qəlbi işıqlandırır, müalicəvi xüsusiyyət kəsb edən sürmə isə gözün nurunu artırır. Məntiq elmini yaxşı bilən, bunun sayəsində lakonik deyim tərzinə malik olan, yaradıcılığında fikir dərinliyini ön plana çəkən Nizami də bu əlamətlərdən faydalanaraq "Leyli və Məcnun" əsərində orijinal bir bənzətmə təqdim etməyə müvəffəq olmuşdur.

"Ağıl insana könül aynasının hamarlanması və onunla edilən ibadətlərlə qəlbə şəfa gəlməsi üçün verilmişdir. Əgər könül aynası yaranışdan əyridirsə, ya cila götürmür, ya da hamar olması üçün xeyli vaxt tələb olunursa, cula qəbul edən, seçilmiş və gözəl aynaya isə azacıq cila da yetərlidir" deyən Rumi ağılı məhvə aparan 4 səbəb göstərir: şəhvət, acgözlük, yüksək mövqelər ardınca qaçma və çox istəkdə bulunma. Mövlanaya görə, "Qəlb inamına əsaslanan ağılın önündən qəflət buludları qalxar və o, Haqqın təcəllisini görən bir nur dalğasına çevrilərək digər ağıllar üçün də faydalı olar" (12, 153). Allah tərəfindən bir feyz kimi insana əta olunan ağıl Rumi nəzərində hiylə alətinə çevrilmiş ağıldan fərqləndirilir. Mənəvi saflığa deyil, zahirə əsaslanan ağıl Rumi tərəfindən korun əsasına bənzədilir.

Saib Təbrizi də sələflərinin yolu ilə gedərək "Kirpiklərinizi açıb dilinizi bağlayın. Üfüqlərin yarın cilvəsilə dolu olduğunu görün" müraciətilə insanları mərifətə səsləyirdi. Müqəddəs Quranın "İsra" surəsinin 72-ci ayəsində deyilir: "Bu dünyada [Allahın dəlillərini, möcüzələrini görməyib gözü və qəlbi] kor olan axirətdə də kor olar və haqq yoldan daha da çox azar!"

Bu dünyadan əliboş gedənlər, axirətdə də əliboş qalırlar. Saibə görə, insan bu dünyadakı qısa ömrünü qənimət bilməli, "dünya keçicidir" deyərək ömrünü bada verməməlidir. Həyatı dəyərləndirməli, vaxtın hər şeydən qiymətli olduğunu anlamalıdır. Bu sınaq meydanında əsl insan olmağa səy göstərməli, durmadan bəşəriyyətə xidmət etməlidir.

Öz hikmətləri ilə Saib insanları qəflət yuxusundan ayıltmağa can atır. "Ey dost, yoxluq çölü ancaq əməl toxumu ilə şənlənir, belə əliboş axirət dünyasına getmə!" deyən şair müasirlərini ölümdən qafil olmamağa, axirəti düşünməyə, yəni bu dünyada Allah və bəşər qarşısındakı vəzifəsini başa düşərək əbədi həyata nail olmağa çağırır.

Hələ XII əsrdə sufi olmayan, lakin şəxsiyyətində sufiyanə bir keyfiyyət hiss edən Xaqani Şirvani yazırdı ki, "Mənə safi deyin, mən onların təmizliyinin nökəriyəm" (8, 32). Batininin saflığı ilə öyünən, "batinimin saflığındandır ki, hər xalq məni özündən bilir" deyən Saib Təbrizinin diqqətini də təsəvvüf məhz bu xüsusiyyəti ilə - mənəvi saflığa dəyər verməsi ilə cəlb etmiş, şair onu düşündürən bəşəri ideyaları təqdim edərkən həmin fikri axından bədii özünüifadə vasitəsi kimi faydalanmışdır.

## ƏDƏBİYYAT


1. Quran (ərəb dilindən tərcümə edənlər Z.Bünyadov və V.Məmmədəliyev). Bakı: Azərnəşr, 1991, 654 s.
2. Azəroğlu B. Saib Təbrizinin sənət dünyası. Bakı: Elm, 1961, 286 s.
3. Bünyadzadə K. "Mən" və cəmiyyət fəlsəfə tarixi kontekstində // Fəlsəfə və sosial- siyasi elmlər. № 4, Bakı: 2008, s. 91-102
4. Qasımova A. Quran qissələri XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatının ideya-bədii qaynaqlarından biri kimi. Bakı: Nurlan, 2005, 246 s.
5. Əli Fuad Bilkan. Saib Təbrizidən hikmət damlaları. İzmir. Basqı: Çağlayan A.Ş. 2003, 72 s.
6. Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran: Süruş Beynəlxalq nəşriyyatı, 1997, 386 s.
7. Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı: Tural-Ə Nəşriyyat poliqrafiya mərkəzi, 2001, 240 s.
8. Kəndli-Herisçi Q. Xaqani Şirvani (həyatı, dövrü, mühiti). Bakı: Elm, 1988, 592s.
9. Mahmudov M. Klassik ərəb ədəbiyyatı. Bakı: Bakı Universiteti nəş-tı, 2001, 258s.
10. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. Bakı: Elm, 1983, 208 s.
11. Məhəmmədi M. Saib Təbrizi və farsdilli poeziyada "hind üslubu". Bakı: Elm, 1994, 187 s.
12. Mövlanə Cəlaləddin Rumi. "Məsnəvi"dən olan seçmələr. Bakı: YOM yayımları, 2007, 232 s.
13. Nizami Gəncəvi. Leyli və Məcnun (Filoloji tərcümə). Bakı: Elm, 1981, 290 s.
14. Nəsimi İ. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, 438 s.
15. Təbrizi S. Seçilmiş əsərləri. Bakı: Maarif, 1980, 402 s.
16. Şıxıyeva S. Orta əsrlər ədəbiyyatında "eşq" anlayışı // Cahan, 1997, № 2, s.36-39


## СУФИЗМ КАК СПОСОБ ХУДОЖЕСТВЕННОГО САМОВЫРАЖЕНИЯ В ТВОРЧЕСТВЕ САИБ ТЕБРИЗИ


**С.М.ГОДЖАЕВА**


### РЕЗЮМЕ


Одним из поэтов, живших и творивших в XVII в., является Саиб Тебризи. В статье рассматривается лирика поэта, говорится об идех-тематических источниках его творчества.

Приходим к выводу, что, находясь под влиянием азербайджанской устной литературы, тюркского фольклора, устного творчества народов Ближнего и Среднего Востока, Тебризи все же смог внести новшества в своих стихах.

Поэт воспользуясь суфизмом, как способом художественного самовыражения, отражает мысли об общественности и индивида.

## SOPHISM AS THE MEANS OF ARTISTIC SELF –EXPRESSION IN THE CREATIVE WORK OF SAIB TABRIZI

**S.M.GOJAYEVA**

**SUMMARY**

Saib Tabrizi is one of the poets, who lived and created in the XVII century. The article deals with the lyrics of the great poet of the  XVIII century – Saib Tebrizi, and refers to the idea-subject sources of his creativity.

Despite being under the influence of the Azerbaijan verbal literature, Turkic folklore, verbal folk art of the Middle East peoples, Tabrizi could introduce a fresh note into the content of his poems.

The article concludes that profiting by sophism as a means of self expression, the poet expressed his opinions about the society and personality.